

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 noyabr 2024-cü il №90 (2901) https://mod.gov.az Qiyməti 30 qəpik


## Güclü ordu - güclü dövlət - əbədi müstəqillik



*Tarixi faktlar sübut edir ki, adı və şöhrəti ilə məşhur olan ordular dünya hərb tarixində öz silinməz izlərini qoyublar. Onların sırasında Roma və Çin İmperiyalarının, Osmanlı İmperatorluğunun orduları, Qədim Yunanıstanın Sparta ordusu və öz şanı ilə tarixdə silinməz izlər qoymağı bacarmış digər ordular vardır. Sadalanan ordular özünəməxsus döyüş taktikaları, təlim metodları və komandanların liderlik və sərkərdəlik keyfiyyətlərinə görə fərqlənsələr də, mahiyyəti etibarilə adlarını tarixin qızıl səhifələrinə həkk etdiriblər. Məlumdur ki, istər qədim, istərsə də müasir dövrdə güclü ordu dövlətin varlığının və müstəqilliyinin qarantı, xalqın inam mənbəyi və güvən yeridir. Bundan savayı, güclü imperiya və dövlətlərin öz sərhədlərini genişləndirməsi, habelə təhlükəsizliyin təmin edilməsi məsələlərində də ordu amili hər zaman ön plana çıxıb.*

Hər bir dövrün öz tələblərinə görə ordunun gücünü təyin edən şərtlər mövcud olub. Məsələn, Roma İmperiyası dövründə ordunun əsasını "legion"lar təşkil edirdi ki, onlar öz döyüş ənənəsi, hərbi intizamı və müharibə uğurları ilə Avropanın fəthində həlledici rol oynamağı bacarıblar. Məşhur sərkərdə Çingiz xan tərəfindən yaradılan monqol ordusu öz süvariləri ilə sürətli hücum taktikası, tez təşkilatlanma və güc çevikliyi ilə Asiyadan Avropaya qədər öz adından bəhs etdirməyi bacarıb. Osmanlı İmperiyasının qəhrəman Yeniçəri Ordusu hərb tarixinin elit piyada qüvvəsi olaraq imperiyanın qızıl dövründə mühüm rola malik olan qüvvə hesab olunurdu. Adını sadalamadığım, lakin hərb tarixində özünəməxsus izlərini qoymağı bacarmış bir çox ordular var. Bunlardan biri yaşı az olmasına baxmayaraq, müasir tarixin ədalətli, həlledici, modern savaşını aparmaqla misilsiz Zəfərini qazanan şanlı Azərbaycan Ordusudur.

Bu məqaləmizdə dövlətimiz müstəqilliyini qazandığı dövrdən bu günə qədər ordumuzun güclənməsində görülmüş və gələcəkdə görülməsi planlaşdırılan mövzulardan danışacağıq. Mövzuya başlamazdan əvvəl "ordunun güclü olmasını şərtləndirən amillər nələrdir?" sualını cavablandıraq. Güclü ordu - müharibə və ya hərbi əməliyyatlar, o cümlədən antiterror fəaliyyətləri zamanı qarşıya qoyulan tapşırığın öhdəsindən effektiv şəkildə gəlməyi, şəxsi heyəti öz vəzifə borcunu ləyaqətlə yerinə yetirməyi bacaran qüvvələrdir. Güclü ordu şəxsi heyətinin sayı ilə deyil, güclü hərbi hazırlığı, yüksək döyüş ruhu, müasir arsenalı (silahlanma) ilə seçilir. Döyüş hazırlığı ordunun gücünün mühüm hissəsini təşkil edir. Döyüş hazırlığı - şəxsi heyətin, bölmələrin, birləşmə və birliklərin, həmçinin onların idarəetmə orqanlarının təyinatlarına uyğun olaraq öz fəaliyyətlərini lazımi səviyyədə təşkil etməsi məqsədilə təsdiqlənmiş bir qaydadır. Döyüş hazırlığı sıravi əsgərdən komandanlıq səviyyəsinə qədər döyüş tapşırığının hər an uğurla yerinə yetirilməsinə hesablanmış hazırlıq prosesləridir. Hərbi hazırlıq şəxsi heyətin fərdi hazırlığı ilə yanaşı, müxtəlif qüvvə və qoşun növlərinin qarşılıqlı əlaqələrini gücləndirmək, bölmələr arasında uzlaşmanı təmin etməklə döyüşün idarə olunması üçündür. Ordunun gücünün artırılması, onun lazımi səviyyəyə çatdırılması üçün bəzi xüsusiyyətlər tələb olunandır. Hərbi təhsil, müasir hərbi-texniki təchizat, məşğələ və təlimlər, hərbi intizam və s.

Peşəkar kadr hazırlığı dedikdə, təcrübəli və bilikli zabitlər, liderlik bacarığı, qərar qəbuletmə keyfiyyətlərini özündə birləşdirən komandirlər nəzərdə tutulur ki, güclü ordunun dayaq sütunlarından biri də məhz belə komandirlərdir.

(Ardı 3-cü səhifədə)




Naxçıvan Hərbi Kollecində muxtar respublikanın 100 illik yubileyi qeyd olunub

5-ci səhifədə



Sən tək deyilsən!..

6-cı səhifədə



“Ana Vətənimizə xidmət etmək müqəddəs borcumuzdur”

6-cı səhifədə



Laçın şəhərinin azad olunmasından 4 il ötür...

7-ci səhifədə

# "Araz-2024" birgə taktiki təlimi



İran İslam Respublikasının Ərdəbil vilayətinin Aslanduz yaşayış məntəqəsi yaxınlığında Azərbaycan Ordusu Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunlarının xüsusi təyinatlı bölmələri ilə keçirilən "Araz - 2024" birgə taktiki təliminin hazırlıq prosesi yekunlaşıb.

Müdafiə Nazirliyi xəbər verir ki, ssenariyə əsasən, şəxsi heyət təlim poliqonunda ərazi ilə tanış olub. Sonra keçirilən iclasda komandirlərin təlim üzrə məruzələri dinlənilib.

"Araz-2024" birgə taktiki təliminin növbəti mərhələsinə uyğun olaraq, hər iki ölkənin şəxsi heyəti təlim sahəsində məşqlərin icrasına başlayıb.

* * *

İran İslam Respublikasının Ərdəbil vilayətinin Aslanduz yaşayış məntəqəsi yaxınlığında Azərbaycan Ordusu Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunlarının xüsusi təyinatlıların iştirakı ilə keçirilən "Araz - 2024" birgə taktiki təlimi başa çatıb.



Təlimin əsas mərhələsində qeyri-qanuni silahlı qruplaşmaların yerlərinin, hərəkət istiqamətlərinin və hazırlıq vəziyyətlərinin müəyyənləşdirilməsi məqsədilə bölgə üzərində pilotsuz uçuş aparatları (PUA) tətbiq edilib, radio-elektron mübarizə və radio-elektron kəşfiyyat üzrə fəaliyyətlər icra olunub.

Şərti düşmənin müəyyən edilmiş mövqeləri sərrast artilleriya atəşi və PUA tətbiq olunması ilə məhv edilib.

Həmçinin düşmənin canlı qüvvəsinin məhv edilməsi üzrə tapşırıqlar hərbi qulluqçular tərəfindən yüksək dəqiqliklə yerinə yetirilib.

Ümumilikdə təlimin gedişatı və hərbi qulluqçuların peşəkarlığı yüksək qiymətləndirilib.

Təlimin yekununda fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.







# "Ermənistan və havadarları revanşizmlə Cənubi Qafqazda reallığın dəyişəcəyinə ümid edirlər"

2024-cü il başa çatmaq üzrədir. Amma hələ də Ermənistan sülh istiqamətində konstruktiv addım atmayıb. Bu ölkə sülh müqaviləsini imzalamaq əvəzinə yeni müharibəyə hazırlaşır. Son vaxtlar İrəvanda revanşizm əhvali-ruhiyyəsi xüsusilə artıb. Fransanın təhriki ilə silahlanan Ermənistan bu yolla 4 ildən çoxdur regionda yaranmış yeni reallığı dəyişəcəyinə ümid edir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Nigar Məmmədova söyləyib.

O bildirib ki, ölkəsində Ermənistanın baş naziri Nikol Paşinyanın reytinqi getdikcə aşağı düşür. Vəziyyəti öz xeyrinə dəyişməyə çalışan N.Paşinyan hərbi əməliyyatlar hesabına uğur qazanacağını zənn edir. Bununla yanaşı, Ukrayna cəbhəsində əli boşa çıxan Fransa və Avropa İttifaqı (Aİ) yeni münaqişə ocağı yaratmaqla Rusiyanın diqqətini yayındırmağa çalışır. Bir sözlə, Qərb yenidən Cənubi Qafqazda ikinci cəbhə açmaq planını davam etdirir və bu yolda alət kimi Ermənistandan istifadə edir.

"Mülki missiya" adı altında şərti sərhəddə kəşfiyyat məlumatları toplayan Aİ missiyasının pozucu fəaliyyəti, Fransanın, Hindistanın Ermənistana silah verməsi, Yunanıstanın S-300 zenit-raket komplekslərini Ermənistana vermək niyyəti Cənubi Qafqazla bağlı məkrli planın tərkib hissəsidir.

Məhz bu səbəbdən dayanıqlı sülh və təhlükəsizlik istiqamətində yekun nəticə əldə etmək mümkün olmayıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də bəyan etdiyi kimi, "Ermənistanı bizə qarşı yönəltmək üçün bəzi Qərb dövlətlərinin planları göz qabağındadır. Təbii ki, onları erməni xalqı maraqlandırmır. Erməni xalqı, sadəcə, onlar üçün bir alətdir, bir vasitədir ki, Azərbaycanı daim təzyiq altında saxlasın".

Rəsmi Bakı isə bütün təhdidlərə adekvat cavab verməyə hazırdır. Prezident İlham Əliyev də bəyan edib ki, belə bəsit metodologiya işləməyəcək: "Əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin". Ermənistan və onun havadarları bu xəbərdarlıqdan nəticə çıxarmalıdır", - deyə deputat vurğulayıb.

# Azərbaycan Ordusunda müxtəlif bölmələrin taktiki-xüsusi təlimləri keçirilib

*Cari ilin hazırlıq planına əsasən, "N" hərbi hissəsində müxtəlif bölmələrin cəlb olunması ilə taktiki-xüsusi təlimlər keçirilib.*

"Həyəcan" siqnalı ilə qaldırılan bölmələr təlim rayonlarına çıxarılaraq qarşıya qoyulan tapşırıqları dəqiqləşdirib, döyüşə hazırolmanın müxtəlif dərəcələrinə gətirilməsi üzrə fəaliyyətləri icra ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, şərti düşmənin döyüş mövqeləri və strateji obyektləri müxtəlif çaplı artilleriya qurğularından sərrast atəşlə məhv edilib. Həmçinin düşmənin təxribat-diversiya fəaliyyətinin qarşısının alınması məqsədilə çətin relyefli, dağlıq və meşəlik ərazilərdə döyüş tapşırıqları icra olunub.

Hərbi qulluqçuların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən taktiki-xüsusi təlimlərdə bölmələr yüksək peşəkarlıq nümayiş etdirib.

# Hərbi attaşelər "Azərkosmos"u ziyarət ediblər



Noyabrın 28-də xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Respublikasının Kosmik Agentliyi - "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzində olublar.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin təşkilatçılığı ilə keçirilən səfərdə ümumilikdə 15 ölkədən 17 hərbi attaşelik aparatının nümayəndəsi iştirak edib.




Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar "Azərkosmos"un ərazisindəki infrastruktur və obyektlərlə tanış olublar. Onlara agentliyin tarixi, fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr, gələcək inkişaf planları barədə brifinq təqdim olunub.

Sonda hərbi attaşeləri maraqlandıran suallar cavablandırılıb.

# Güclü ordu - güclü dövlət - əbədi müstəqillik

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 mart 2022-ci il tarixli, 1626 nömrəli Fərmanına əsasən, qabaqcıl xarici orduların praktikasına əsaslanaraq Milli Müdafiə Universiteti (MMU) yaradıldı.

Bu universitet hərbi təhsil sisteminin elmi, idarəedici və digər mühüm sahələrini koordinasiya etməklə yanaşı, tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin vasitəsilə ali təhsilin bütün səviyyələri üzrə mütəxəssislərin hazırlanmasında, bir sözlə, bu gün ordumuzda peşəkar zabit kadrlarının ixtisaslaşmasında, təcrübəli hərbi qulluqçuların yetişdirilməsində misilsiz rola malikdir. Bu gün



Azərbaycan Ordusunun təcrübəli kadrlarla zənginləşdirilməsində, müxtəlif kateqoriyalı hərbi qulluqçuların hazırlanmasında Milli Müdafiə Universiteti və onun nəzdində fəaliyyət göstərən Hərbi Elmi Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi yaxından iştirak edir. Hərbi təhsildən danışarkən mütləq qeyd olunmalıdır ki, bu sahə üzrə gənc hərbçilərimiz ilkin addımlarını xüsusi təyinatlı tam orta təhsil müəssisələri olan Cəmşid Naxçıvanski və Heydər Əliyev adına hərbi liseylərdə atır. Bir sözlə, Azərbaycan Ordusunun hərbi təhsil sahəsi dövlət başçımız tərəfindən ordu rəhbərliyi qarşısında qoyduğu prioritet istiqamətlərdən biridir.

Müasir dövrdə hərbi texniki təchizat texnologiyanın sürətli inkişafı ilə daha da modernləşmiş, hərbi gücün artırılması üçün dövrün tələblərinə uyğun innovativ sistemlərə əsaslanmışdır. Bu vasitələr ölkənin həm döyüşaparma, həm də özünümüdafiə qabiliyyətinin yüksəldilməsində effektivliyi təmin edir. Bundan savayı, işğaldan azad olunmuş ərazilərimizdəki hərbi hissələrin maddi-texniki bazasının inkişaf etdirilməsi, şəxsi heyətin xidməti və məişət şəraitinin yaxşılaşdırılması da gündəlikdə duran vacib məsələlərdəndir. Cari ildə də dünyanın aparıcı ordularına sahib dövlətlərlə qurulmuş qarşılıqlı səmərəli əməkdaşlıq sayəsində mühüm layihələrə imza atılmış, nəticədə ordumuzun hərbi təminat və təchizat bazası xeyli modernləşmiş və gücləndirilmişdir. Müdafiə sənayesindən söz düşmüşkən onu da qeyd etmək lazımdır ki, xarici dövlətlərlə yanaşı, yerli müdafiə sənayemizin istehsalı olan müxtəlif hərbi texniki təminat və təchizat vasitələrini də ordumuzda görmək mümkündür. Belə ki, Quru Qoşunlarının tərkibindəki bölmələrin (tank, PDM və müxtəlif təyinatlı zirehli maşınları və s.) modernləşdirilməsi, müasir cihaz, texniki vasitələrlə təchiz olunması müasir döyüş və müdafiə üsullarının öyrənilməsi üçün vacib faktorlardandır. Bu gün müasir rəqəmsal texnologiyaların sürətli inkişafı sayəsində modern uzaqvuran və yüksək dəqiqliyə malik döyüş vasitələrinin arsenalımıza daxil edilməsi ilə ordumuzun və dövlətimizin güc potensialı xeyli möhkəmlənib. İtaliya və Pakistanla əməkdaşlığa əsasən, inventarımıza daxil olunmuş yeni nəsil hərbi təyyarələr, həmçinin qardaş Türkiyə Respublikası ilə qurulan səmərəli əlaqələr sayəsində müasir aviasiya vasitələri ilə komplektləşdirilib. Hava hüdudlarımızın qorunması üçün isə Hava Hücumundan Müdafiə bölmələri uzaqmənzilli və yüksək dəqiqlikli müdafiə sistemləri ilə təchiz olunub, bununla yanaşı, təchizatımızda olan müasir radar sistemləri və müşahidə vasitələrinin istifadəsi ilə hava məkanımızı izləmək və baş verə biləcək təhlükələri qabaqcadan aşkar etmək mümkündür. Hərbi Dəniz Qüvvələrinin modern tələblər çərçivəsində qurulması, gəmilərin müasir müşahidə, döyüş vasitələri ilə təmin olunması işləri görülüb. Bu gün hərbi gəmilərimiz də öz növbəsində dəniz hüdudlarımızın qorunmasında iştirak edir, sahil müdafiəsi, strateji dəniz əməliyyatları fəaliyyətlərini yüksək səviyyədə yerinə yetirməyə qadirdirlər. Bundan savayı, Xəzər dənizinin Azərbaycana məxsub ərazi sularında mühüm əhəmiyyət daşıyan infrastruktur obyektlərinin mühafizəsi istiqamətində hazırlıqlarını durmadan artırırlar.Təbiidir ki, görülən işlər ölkəmizin müdafiə qabiliyyətinin artırılması ilə yanaşı, regiondakı sülh və sabitliyin təmin olunmasına görədir.



Ordunun gücündən danışarkən illik təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, keçirilən çöl və sinif dərs və məşğələləri, o cümlədən təşkil olunan müxtəlifmiqyaslı təlimləri xüsusi qeyd etmək lazımdır. Belə ki, adıçəkilən fəaliyyətlər şəxsi heyətin döyüş hazırlığını yüksəltmək, fiziki və mənəvi keyfiyyətləri üzrə bilik və bacarığını artırmaq məqsədilə keçirilir. Keçirilən dərs və məşğələlər müxtəlif sahələri əhatə edir. Atəş hazırlığı dərslərində əsgərlər müxtəlif növ silahların istifadə qaydalarını, onların taktiki-texniki göstəricilərini öyrənir, silah üzrə praktiki və nəzəri bilik və bacarıqları artırırlar. Şəxsi heyətlə təşkil olunan fiziki hazırlıq məşğələləri şəxsi heyətə fiziki dözümlülük, operativlik, döyüş çətinliklərinin və tapşırıqların icrasındakı çətinlikləri dəfetmə bacarıqlarını aşılayır. İxtisasa uyğun olaraq keçirilən çöl təlimlərində hərbi qulluqçular çətin relyef, əlverişsiz iqlimə uyğun ssenariləşdirilmiş ərazilərdə müxtəlif tapşırıqların icrasında iştirak edirlər. Taktiki təlimlər zamanı bölmələr vahid komandanlıq tərəfindən verilən tapşırıqları qrup şəklində icra edir, hücum və müdafiə fəaliyyətlərinə uyğun olaraq normativləri yerinə yetirirlər. Döyüş hazırlığı planına əsasən, aşağıdakı şərtlərə nail olmağın vacibliyi xüsusi qeyd olunmalıdır, şəxsi heyətin daim döyüşə hazır olmasını təmin etmək; labüd müharibə şəraitində zəruri olanları hərbi qulluqçulara öyrətmək; öyrətmə mexanizmasını fərdi və kollektiv izah etmək; təlimi real döyüş şəraitinə maksimum uyğunlaşdırmaq. Döyüş hazırlığının şərtlərinə təmin edilməsi ordunu savaş və kiçik savaş mühiti olan təlim meydanında daha güclü edir.



Azərbaycan Ordusunun şəxsi heyəti təkcə ölkə daxilində keçirilən müxtəlifmiqyaslı təlimlərdə deyil, ölkə hüdudlarından kənarda keçirilən beynəlxalq səviyyəli və yaxud regional dövlətlərin iştirakı ilə keçirilən təlimlərdə də iştirak edir. Birgə keçirilən təlimlərdə qardaş Türkiyənin iştirakını xüsusi qeyd etmək lazımdır. Türkiyədə keçirilən "Anadolu Qartalı", "Anadolu Ankası", "Efes" beynəlxalq təlimləri, Azərbaycanda keçirilən "TurAz Qartalı" və "TurAz Şahini" taktiki uçuş təlimlərini, "Mustafa Kamal Atatürk" birgə taktiki təlimi və adı sadalanmayan müxtəlif təyinatda və miqyasda olan təlimlərdə iki qardaş ölkənin hərbi qulluqçuları qarşılıqlı təcrübə mübadiləsi keçirir,



müasir döyüş üsullarının tətbiqi ilə uzlaşmanın düzgün təşkil edilməsində iştirak edirlər. Son bir neçə ayda Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti Türkiyədə keçirilən "SAT-SAS-2024" birgə təlimində iştirak etdi. Hər iki ölkənin sualtı hücum və sualtı müdafiə bölmələrinin iştirakı ilə keçirilən təlim xoş təəssüratlarla yadda qaldı. Bundan başqa, Xəzər dənizinin İran İslam Respublikasına məxsus hissəsində "AZİREX-2024" birgə taktiki təlimi keçirildi ki, Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti bu təlimdə müvəffəqiyyətlə iştirak etdi. "Eternity-2024" çoxmillətli komanda-qərargah təlimində Azərbaycan, Türkiyə və Gürcüstanın hərbi qulluqçularının iştirakı ilə yaddaqalan oldu.

Şanlı ordumuz bu gün öz gücünü daha da artırmaqla təkcə regionda deyil, dünyanın aparıcı orduları sırasında da yer alır. O siyahıda dünya nəhəngi ölkələrin olmasına baxmayaraq, Azərbaycan Ordusu cari əsrin yeganə ədalətli və Qalib ordusu olaraq qalmaqdadır. Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə xalqımıza Zəfər bəxş edən şanlı ordumuzun daha da inkişafı üçün fəaliyyətlər planı uğurla icra olunur. Fəaliyyətlər planına əsasən, ordumuzun kadr heyətinin peşəkarlığının artırılması, döyüş ruhunun yüksəldilməsi, arsenalımıza müasir döyüş vasitələrinin daxil edilməsi, ordu quruculuğu sahəsində beynəlxalq təcrübələrin öyrənilməsi prosesi bu gün də uğurla davam etdirilir. Ordumuz məqalənin əvvəlində sadaladığımız imperiyaların yaratdığı hərb sənətinin incəliklərini müasir dövrün tələblərinə uyğun bütün dünyaya göstərdi. Azərbaycan Ordusunun öz xalqının dəstəyi, sərkərdəsinin qətiyyəti ilə yazdığı Zəfər tarixi bu gün dünyanın hərbi elmi mərkəzlərində təhlil olunur, müharibənin hər günü analiz edilir. Bu Böyük Qələbə qanla və qisas arzusu ilə qazanılmış qələbədir. "Dəmir Yumruq" həm qisasımızın, həm birliyimizin rəmzi oldu. Bu gün ordumuz daha da güclənir. Bu güc dosta güvən, düşmənə gözdağıdır. Birliyimiz əbədidir, müstəqilliyimiz də. Çünki ordumuz güclüdür. Ordumuz güclüdürsə, xalqımız da dövlətimiz də güclüdür.

Kapitan
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# "SAT-SAS-2024" təlimi




Türkiyə Respublikasının Marmaris şəhərinin Aksaz dəniz bazasında Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə keçirilən "SAT-SAS-2024" birgə təlimi davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, plana əsasən, təlimin növbəti günündə dəniz xüsusi təyinatlı bölmələri quru ərazidə şərti düşmən arxasına helikopterdən enmə zamanı dairəvi mühafizə və müdafiənin təşkili üzrə tapşırıqları praktiki yerinə yetiriblər.

Təlim zamanı hərbi qulluqçularımız qarşıya qoyulan tapşırıqların icrasında yüksək peşəkarlıq nümayiş etdiriblər.

* * *

Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə keçirilən "SAT-SAS-2024" birgə təlimində növbəti tapşırıqlar icra olunub.

Təlimin planına əsasən, hər iki ölkənin dəniz xüsusi təyinatlı bölmələri kustar üsullarla hazırlanmış partlayıcıların təhlükəsizlik tədbirləri nəzərə alınmaqla zərərsizləşdirilməsi, həmçinin şərti düşmənin hədəf gəmisinə sualtı gizli yaxınlaşaraq xüsusi dəniz minalarının quraşdırılması üzrə tapşırıqları yerinə yetiriblər.

Birgə təlimdə əsas diqqət hərbi qulluqçuların nəzəri biliklərinin artırılmasına, praktiki vərdişlərin təkmilləşdirilməsinə, eləcə də qarşılıqlı təcrübə mübadiləsinin aparılmasına yönəldilib.







# Şəxsi heyətin sağlamlığı da döyüş hazırlığının mühüm hissəsidir

*Müstəqilliyimizin və suverenliyimizin qarantı olan ordumuzda döyüş hazırlığı ilə yanaşı, şəxsi heyətin tibbi təminatı da diqqətdə saxlanılır. Bu istiqamətdə tibb xidməti məqsədyönlü işlər aparır, maarifləndirici tədbirlər keçirir. Xüsusilə, qış mövsümündə hərbi qulluqçuların sağlamlığının qorunması və onların xidmətə tam hazır vəziyyətdə olması üçün tibbi maarifləndirmə tədbirləri mühüm əhəmiyyət kəsb edir. Çünki hərbi qulluqçuların sağlamlığı da döyüş hazırlığının mühüm tərkib hissəsidir.*

Qış mövsümü soyuq hava, yüksək rütubət və sərt küləklərlə xarakterizə olunur. Bu cür iqlim şəraiti müxtəlif mövsümi xəstəliklərin, o cümlədən qrip, soyuqdəymə, bronxit və kəskin respirator virus infeksiyalarının yaranmasına və yayılmasına səbəb ola bilər. Həmçinin mənfi temperatur şəraitində uzun müddət açıq havada qalmaq donvurma kimi ciddi sağlamlıq problemləri yarada bilər. Orduda şəxsi heyətin sağlamlığı və döyüş qabiliyyətinin qorunması üçün tibbi maarifləndirmə tədbirləri xüsusi diqqət mərkəzində saxlanılır.

Qış mövsümündə Azərbaycan Ordusunda həyata keçirilən tibbi maarifləndirmə tədbirləri, mövsümi xəstəliklərdən qorunma üsulları, donvurma hallarının qarşısının alınması və şəxsi heyətin sağlamlığının qorunması istiqamətində aparılan işlər barəsində Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının rəis müavini, tibb üzrə fəlsəfə doktoru, dosent, istefada olan tibb xidməti polkovnik-leytenantı Rafael Əhmədov bildirdi ki, müdafiə nazirinin müvafiq əmrinə əsasən, qış mövsümü ilə bağlı xüsusi təlimat hazırlanır. "Bu təlimatda soyuq temperaturun uzun müddət orqanizmə təsiri (donvurma) və onun nəticələri barədə məlumat verilir. Soyuq havada donvurma hadisələri əsasən mənfi 3-5°C temperaturda, xüsusilə də 1-2 saatdan artıq açıq havada qaldıqda və isti geyim olmadıqda baş verir. Bu zaman damarlar sıxılır, qan dövranı zəifləyir və bu hallar hipotermiyaya səbəb ola bilər. Donvurmalar bir neçə mərhələyə bölünür:

**1. Reaktivliyə qədərki mərhələ** - donvurma hadisələrinin ilkin mərhələsi olub, bu dövrdə simptomlar açıq görünmür. Donvurmanın təsirindən zədələnmiş nahiyələrdə bir neçə gün sonra qabarıqlar, qaraltılar və çürümə zonaları meydana gəlməyə başlayır. Bu, donvurmanın ağır mərhələlərində müşahidə edilir.

**2. Reaktiv mərhələ** - donvurma simptomları bu mərhələdə özünü göstərir. Dərialtı toxumaların zədələnməsi nəticəsində dəridə göyərmə, qızartı, şişkinlik və ağrılar yaranır. Bu cür donvurmalar yüngül dərəcəyə aid edilir və əsasən birinci və ikinci dərəcəli donvurmalar hesab olunur. Donvurmalar təkcə soyuq havada deyil, həm də dənizdə suyun soyuq temperaturundan yaranır. Uzun müddət soyuq suda qalmaq xroniki soyumaya və birinci-ikinci dərəcəli donvurmalara səbəb ola bilər. Bundan başqa, "kontakt donvurma" adlanan hallar da mövcuddur. Bu, mənfi 15-20°C temperaturda bədənin açıq hissələrinin soyuq metal səthlərə toxunması nəticəsində baş verir. Belə hallarda toxuma dəmirə yapışır və zədələnir. Donvurma bədənin soyuq havaya məruz qalması nəticəsində toxumaların donması ilə ortaya çıxır. Bu zaman toxumalarda oksigen və qidalanmada çatışmazlıq yaranır ki, bu da hüceyrə ölümünə gətirib çıxarır. Donvurma əsasən açıq dəri sahələrində, xüsusən də barmaqlarda, burunda, qulaqlarda və ayaqlarda baş verir. Donvurmaların qarşısını almaq üçün hərbi qulluqçular müntəzəm isti maye, çay, kofe və süd qəbul etməli, soyuq hava şəraitində hərəkətdə olmalı, isti geyimlərdən istifadə etməli və bədənləri quru saxlamalıdırlar. Donvurma zamanı zədələnmiş nahiyəni isitmək və təkrar soyumadan qorumaqla ilkin tibbi yardım göstərmək olar. Bunun üçün zərərçəkmişi isti otağa gətirmək, ayaqqabılarını və əlcəklərini çıxarmaq lazımdır. Donmuş orqan ilıq su tökülmüş ləyənə yerləşdirilməli, 30 dəqiqə müddətində suyun temperaturu müsbət 17-18 °C-dən 40,5 °C-yə çatdırılmalıdır. Ətrafda hissiyyat və qan dövranı bərpa olunduqdan sonra qurulamaq, 33 faizli spirtlə silmək və pambıq-tənzif bintlə sarımaq lazımdır (təmiz, ütülənmiş corab geyindirmək olar). Ümumi soyuma olduqda isə zərərçəkmişi isti adyalla örtmək, yanına isitqac düzmək, isti çay vermək lazımdır. Dərin donma əlamətləri varsa, yalnız isidici sarğı qoyulmalıdır. Əgər bunları etmək imkanı yoxdursa, donmuş ətraflar bədənin isti yerlərinə və s. yaxın saxlanılır. Üz kimi açıq nahiyələrə təzyiq göstərmədən əl və ya əlcək qoyub isidilir. Əlləri qoltuq altında və ya sinədə qızdırmaq olar. Bundan başqa, zədələnmiş nahiyəyə tarım çəkilmiş steril quru sarğı qoyulur, əl və ayaq barmaqlar donubsa, onların arasına pambıq və ya tənzif qoyulur. Ayaqların donu açılandan sonra zərərçəkənin gəzməyinə icazə verilmir. Huşu aydın olan zərərçəkənə isti çay və yemək verilir. Suluqlar deşilmir, zədələnmiş nahiyəni əllə ovuşdurmaq, qarla sürtmək və ona təzyiq göstərmək olmaz. Zədələnmiş nahiyənin qarla sürtülməsi dərinin daha da soyumasına, dəridə cızıqların əmələ gəlməsinə, onların infeksiyalaşmasına və dəridə yerləşən toxumaların zədələnməsinə səbəb olur. Bədənin donmuş hissələrini birdən-birə və birbaşa açıq alov, isti butulka və isti kərpiclə qızdırmaq olmaz. Soyuq şəraitdə vaxtında tədbirlər görmək böyük rol oynayır və düzgün davranışlarla ciddi fəsadların qarşısını almaq mümkündür".

Azərbaycan Ordusunun hərbi qulluqçularının xidmət etdiyi müəyyən ərazilər sərt iqlim şəraitinə malikdir. Xüsusilə, qış aylarında dağlıq ərazilərdə havanın temperaturu sıfırdan aşağı düşür və hərbi qulluqçuların donvurma ilə üzləşməsi riskləri artır. Tibb üzrə fəlsəfə doktoru, dosent Rafael Əhmədov bildirdi ki, hərbi hissələrdə donvurmaların qarşısının alınması üçün metodik köməklik göstərilməsi məqsədilə Müdafiə Nazirliyinin Tibb İdarəsi tərəfindən telefonoqramlar və məktublar göndərilir, hərbi həkimlər şəxsi heyətlə təlimatlandırıcı söhbətlər aparırlar. Həmçinin qeyd etdi ki, bütün bunlarla yanaşı, donvurmaya məruz qalmamaq üçün hər bir hərbi qulluqçu fərdi olaraq kəskin soyuqlar zamanı düzgün qidalanmalı, quru və isti geyinməlidir. Soyuq havalarda yun və xəz paltardan istifadə etməli, papaq geyinməlidir ki, istiliyin bədəndən xaric olmasının qarşısı alınsın. Bu sahədə aparılan qabaqlayıcı işlərin təkmilləşdirilməsi Azərbaycan Ordusunun daha sağlam, yüksək döyüş qabiliyyətli heyətə malik olmasını təmin edir.

**"Azərbaycan Ordusu"**

# Naxçıvan Hərbi Kollecində muxtar respublikanın 100 illik yubileyi qeyd olunub

*Azərbaycan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində muxtar respublikanın 100 illik yubileyi ilə bağlı "100 illik şərəfli tarixi yol" adlı tədbir keçirilib.*



AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə kollecin kitabxanasında yubileyə həsr edilmiş "Naxçıvan - 100" adlı 100 nüsxə kitab sərgisi ilə tanış olublar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov çıxış edərək bildirib ki, Prezident İlham Əliyev muxtar respublikanın 100 illik yubileyinin geniş qeyd olunması ilə bağlı 2023-cü il dekabrın 30-da Sərəncam imzalayıb. Sərəncamın icrası ilə əlaqədar ötən dövrdə Naxçıvanda silsilə tədbirlər həyata keçirilib, muxtariyyət tarixinin araşdırılması istiqamətində kitablar, elmi nəşrlər, jurnallar çap edilib. Naxçıvan Hərbi Kollecində keçirilən "100 illik şərəfli tarixi yol" tədbiri də yubiley tədbirlərinin davamıdır.

Qeyd olunub ki, geostrateji ərazidə yerləşən, qədim türk yurdu Naxçıvan müxtəlif dövrlərdə gərgin siyasi mübarizələr meydanına çevrilsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf edib. Naxçıvanda dünyaya göz açan dahi şəxsiyyət Heydər Əliyev 1990-1993-cü illərdə məhz bu torpaqda milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə misilsiz işlər görüb. Naxçıvan 2020-ci ildə 44 günlük Vətən müharibəsinin qazanılmasında da xüsusi rol oynayıb, diyarın igid övladları şanlı Zəfər dastanında parlaq səhifələr yazıblar. 2024-cü ildə 100 illiyi geniş şəkildə qeyd olunan muxtar respublika dövlət başçısının diqqət və qayğısı sayəsində böyük inkişaf yolunda inamla irəliləyir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Emin Şıxəliyev, Üzeyir Məmmədov və "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova muxtar respublikanın qədim, zəngin tarixi, ecazkar təbiəti barədə ətraflı söhbət açıb, hərbi kollecin kursantlarına şərəfli peşələrində uğurlar arzulayıblar.

Sonra "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimova kollecin kollektivinə hədiyyə olaraq "Come to Nakhchivan" fotoalbomunu Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynova təqdim edib.

Yubiley tədbiri "Ulu torpaq, Ulu Öndər" adlı filmin nümayişi ilə yekunlaşıb.

# Naxçıvanda doğum günü noyabr ayında olan şəhidlərin xatirəsi anılıb



Noyabrın 28-də "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə doğum günü noyabr ayında olan şəhidlərin anım tədbiri keçirilib.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanan doğum günü noyabr ayında olan şəhidlərlə bağlı videoçarx izlənilib. Tələbələr videoçarxda adları çəkilən Birinci və İkinci Qarabağ müharibəsinin 32 şəhidinin portretlərini səhnədə nümayiş etdiriblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Fərid Bağırzadə çıxış edərək bildirib ki, noyabr ayının Azərbaycan tarixində xüsusi rolu və yeri var. Dörd il bundan öncə Ali Baş Komandanın rəhbərliyi ilə başlanan Vətən müharibəsi məhz bu ayın 8-də Böyük Qələbə ilə nəticələndi. Azərbaycan Ordusu öz missiyasını ləyaqətlə yerinə yetirdi, ərazi bütövlüyümüz təmin olundu. Ölkəmizdə yaranmış xalq-ordu-rəhbər birliyi nəticəsində tarixi ədalət bərqərar edildi. Ötən il sentyabrın 19-20-də lokal xarakterli antiterror əməliyyatı ilə dövlət suverenliyimiz də tam bərpa olundu. Azərbaycan Respublikası Prezidentinin bu il sentyabrın 19-da imzaladığı Sərəncama əsasən, hər il sentyabrın 20-si ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək.

Vurğulanıb ki, bu gün dövlətimiz tərəfindən Vətən oğullarının bizə əmanət etdiyi azad torpaqlarda geniş quruculuq işləri reallaşdırılır. Soydaşlarımız azad edilmiş torpaqlara qayıdırlar. Tarixi torpaqlarımızda təhsil ənənələri də bərpa olunur. Bu il dövlət başçısının iştirakı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin açılışı oldu. Prezident universitetin müəllim və tələbələri ilə görüşündə pedaqoji kollektivin, gənclərin qarşısında duran prioritet hədəfləri açıqladı.





Vurğulanıb ki, dövlətimiz tərəfindən atılan hər yeni addım əvvəlkinin məntiqi davamıdır. Bunu Vətən müharibəsindən ötən dövrün ictimai-siyasi mənzərəsi də göstərir. Qazanılan bütün uğur və nailiyyətlərin arxasında Ali Baş Komandanın iradəsi, şəhidlərimizin, döyüşlərdə sağlamlığını itirmiş silahdaşlarımızın qəhrəmanlıqları dayanır. Bu baxımdan xalqımız daim igid oğullarının xatirəsini ehtiramla anır. Naxçıvanda bu ilin əvvəlindən başlayaraq hər ayın sonunda doğum günü həmin ayda olan şəhidlərin xatirəsinə həsr olunan tədbirlərin təşkili də Vətən yolunda canından keçənlərə böyük hörmət və ehtiramın nümunəsidir.

Mərasimdə şəhid ailələri adından şəhid Əli Babayevin bacısı Məryəm Vəliyeva və şəhid Abbasəli Nəzərəliyevin qızı Şövkət Nəzərəliyeva qəhrəman oğulların şücaətlərindən söhbət açıb, anım tədbirinin təşkilinə görə minnətdarlıq ediblər.

Tədbirin bədii hissəsində Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti və "Altai" teatrının aktyorlarının birgə hazırladıqları "Biz qalib ölkənin vətəndaşıyıq" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

*Esse*

# Sən tək deyilsən!..

Bu ucalıqda boy atıbsan, böyüyübsən, illərlə yayın istisində-bürküsündə mehmanlarına kölgəlik olubsan, yorulan yolçular kölgəliyində nəfəs dərib. Yol azanlar el yolunu səninlə səmtləşdirib. Yan-yörən el-obanın örüş yeri olub. Yazda-yayda, payızın son ayına kimi hər səhərin dan yeri cavanların, yaxın kəndlərin güzəran cəfakeşlərinin şamarlarıyla sökülüb...

Zaman dəyişdi, yaman dəyişdi, Tək ağac. Emənilər Azərbaycandan torpaq iddiasına düşdü. Düşmən bu həndəvərlərdə də camaatı ev-eşiyindən tərpətmək üçün basqınlar, həmlələr edirdi. O vaxtlarda dağ əsgəriydi, daş əsgəriydi, hər oymaq əsgəriydi, əli silah tutanların hamısı əsgər olmayan əsgəriydi. Bu səmtlərdə də düşmənin hər tərpənişini qeyrətlə susdururdular...

Ötən əsrin sonlarında dörd cavanın güllələri sinə-sinə, daldalana-daldalana bu tərəflərə gələn on-on beş yaraqlı düşmən indi əsgərlərimizin döyüş növbətçiliyi apardığı mövqedə dirəndirib. Xeyli atışıblar. Düşmənlərdən üçü öldürülüb, qalanları qaçıb. Cavanlarımızdan biri yaralanıbmış. Onu sənin kölgəliyinə gətiriblər, Tək ağac. Əlin olsaydı, yaralarını sarıyardın, dilin olsaydı toxtaqlıq verərdin. Yaralının yaralarına hansı çiçəyininsə ləçəklərini qoyublar, üstünə bir ovuc quru torpaq səpib sarıyıblar. Ucalığın məlhəm havasının, çiçək ləçəyinin, torpağın qüdrətiymiş - bir az keçəndən sonra yaralı özünə gəlib, rəngi-ruhu düzəlib, onu cavanlardan biri atın tərkinə alıb Mutudərəyə endirib. Sağalıb o igid. Söz sözü çəkəndə deyərmiş ki, məni torpağımızın müqəddəsliyi, Tək ağacın kölgəliyi sağaltdı...

Düşmən düşmənliyindəydi. 2020-ci il sentyabrın 27-də yenə ərazilərimizə hücum elədi. Ordumuzun hissələri hücumun qarşısını qətiyyətlə aldı, döyüşü Ali Baş Komandanın əks-hücum əmri ilə davam etdirdi. Bu əmr İkinci Qarabağ müharibəsinin başlanğıc əmri oldu...

Azərbycan Ordusu tarixi Zəfər qazandı, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu...

Tarixi Zəfərdən aylar sonra, yazın göylüyündən dikəlib sənə çatan iki nəfəri əvvəl tanıya bilmədin. Bilmədin ki, yaşlı yolçu neçə illər əvvəl kölgəliyində yaralarına məlhəm edilən həmin cavandı, yanındakı da oğludu. Gəldilər, tanımadığın orta yaşlı kişinin əlləri səni budaq-budaq oxşadı. Bu nəvazişdən kövrəldin. Kövrəkliyini əli oğlunun çiyninə enən kişinin qəhərli səsi daha da artırdı:

- Sənə dediyim yer buradı, oğul, dediyim ağac budu. Sən də döyüşçü oldun, sən də döyüşdə yaralandın. Şuşa uğrunda döyüşürdün, Xocavənd səmtində Şuşanın girəcəyində yaralanıbsan, səni qollu-budaqlı bir ağacın daldasına çəkiblər, yaranı sarıyıb döyüşü davam etdiriblər. Düşmən geri çəkiləndən sonra səni arxaya göndəriblər. Getdik, sənə ətək sərən o ağacı birlikdə gördük, gəldik ki, mənə ətək sərmiş bu ağacı da birlikdə ziyarət edək. Mənim də ömrümdə ağac ömrü var, sənin də ömründə ağac ömrü var. İndi sən də bilirsən ki, döyüşdə Vətənin hər daşı da, hər ağacı da əsgərləşir, oğul. Bu, Vətənin müqəddəsliyidi...



Kişi şeirə könül verənlərdənmiş...

Kişi sənə, oğul atasına sığınanda həzin bir yel əsib, xırda budaqların ikisinin də saçlarını titrədib. Duyğulanan kişi budağını ovucunda doğmalıqla sıxıb, bir qədər yuxarıda döyüş növbətçiliyi aparanlara sarı baxıb:

***Yaranışdan olmadın,***
***bir əl, bir ətək, ağac.***
***Göylərin yağışını,***
***yarpağına çək, ağac.***
***Əsgər qardaşların var,***
***tək deyilsən, Tək ağac!..***

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "Ana Vətənimizə xidmət etmək müqəddəs borcumuzdur"

*Müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantı olan qalib ordumuzun döyüş qabiliyyəti müasir silah və texnika ilə yanaşı, əsgərinin fərdi hazırlığından bilavasitə asılıdır. Danılmaz faktdır ki, müasir silahlardan yüksək səviyyədə istifadə etməyi bacaran, Vətənə sonsuz sevgi ilə bağlı olan, hərbi sirlərə sadiq, yüksək döyüş ruhunda xidmət edən əsgərlərə malik ordu, ən güclü ordudur. Bunun üçün də Azərbaycan Ordusunda xidmət edən gənclərin döyüş hazırlığına yüksək diqqət göstərilir.*



Bu gün ordumuzun bütün qoşun növlərində gənclərə peşəkar səviyyədə təlimlər keçirilir. Təlim müddətində onlara atəş, taktika, sıra, ictimai-siyasi hazırlıqlar və digər mövzularda əyani və praktiki məşğələlər keçirilir. Gənclər də öz növbəsində hərbi xidmətə həvəslə yanaşır, bacarıqlı əsgərlər olmaq, nümunəvi xidmət etmək üçün can atırlar. Bu gün ordumuzun istənilən bölməsində nümunəvi xidmətləri ilə seçilən gənclər xidmət edirlər. Onlar hərbi xidməti müqəddəs vəzifə hesab edirlər. Vətən qarşısında övladlıq borcu bilirlər. Şanlı Ordumuzun adına layiqli əsgərlər olmaq üçün təlim-məşqlərdə həvəslə iştirak edir, bacarıqlı, vətənpərvər əsgərlər kimi formalaşmaq üçün çalışırlar. Sevindirici haldır ki, gənclərimiz hərbi formanı geyib, Azərbaycan əsgəri adını daşımaqla qürur duyurlar. Ürəklərində sonsuz Vətən sevgisi ilə xidmət edirlər. Hər birinin tək amalı Vətənimizin müdafiəsində mətin dayanmaqdır. Bunun üçün xidmətə məsuliyyətlə yanaşır, komandirlərinin tapşırıqlarını dəqiq yerinə yetirirlər. Öz xidmətləri ilə sübut edirlər ki, Azərbaycan əsgəri vətənpərvər, qorxmaz, cəsurdur və istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə hər an qadirdir.

Hərbi hissələrə ezamiyyətimiz zamanı belə vətənpərvər əsgərləri yaxından tanıyırıq. Onlarla söhbət zamanı hər biri vurğulayır ki, Vətən bizlərə əmanətdir, biz Vətən keşikçiləriyik, üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirməyi mənəvi borc bilirik.

Komando hərbi hissələrindən birində belə vətənpəvər oğullardan daha birini - əsgər Mirpaşa Həsənovu tanıdıq. Onun nümunəvi xidmətindən komandirləri ağızdolusu danışdı. Mirpaşanın xidmətə gəldiyi gündən məsuliyyətli, intizamlı olmasından fəxrlə söz açdılar. "Mirpaşa bölməmizə gəldiyi gündən nümunəvi xidməti, bacarığı ilə seçilir. Davranışı, əxlaqi keyfiyyətləri ilə kollektivin rəğbətini qazanıb. Mirpaşa kimi üstün keyfiyyətlərə malik, vətənpərvər, igid oğullarla bir arada xidmət etmək komandir heyətinə də ruh yüksəkliyi aşılayır. Onun və digər əsgər yoldaşlarının nümunəvi xidməti döyüş hazırlığının artırılmasında mühüm rol oynayır. Mirpaşanın timsalında əsgərlərimizin hər birinin valideynə belə cəsur, milli mənəvi köklərimizə bağlı, dövlətinə sədaqətli oğul tərbiyə etdikləri üçün dərin minnətdarlığımızı bildiririk", - baş leytenant Cavid Mustafayev dedi.

Əsgər Mirpaşa Həsənovla həmsöhbət olduq. Mirpaşa bir ilə yaxındır ki, ordu sıralarında xidmət edir. Hərbi xidmətə Gəncə şəhərindən çağırılıb. Hərbi xidmətin mahiyyəti, müqəddəsliyi, gənclərə aşıladığı üstün keyfiyyətlər haqqında onun düşüncələrini öyrəndik. Əsgəri xidməti Vətən qarşısında övladlıq borcu bildiyini dedi. O vurğuladı ki, Vətən anamızdır, ən müqəddəs varlığımızdır, Vətənin keşiyində durmaq, onu inamla qorumaq müqəddəs və şərəfli vəzifədir. "Hərbi xidmətə gəldiyim gündən intizamlı olmağı, hərbi sirlərə dərindən yiyələnməyi, vicdanla xidmət etməyi özümə söz vermişəm. Komandirimin xidmətimdən razı qaldığını bilmək məni çox qürurlandırdı, sevindirdi, daha da ruhlandırdı. Bu gün Azərbaycan Ordusunun sıralarında xidmət edən hər gənc kimi mən də fərəhliyəm. Fəxr edirəm ki, əsgərəm, Vətənin qoruyucusuyam. Qalib və rəşadətli ordunun nümayəndəsiyəm. Ordu sıralarına gəldiyim ilk gündən tək məqsədim rəşadətli ordumuzun adına layiqli əsgər olmaq, nümunəvi xidmət edərək, ailəmin yanına başıuca qayıtmaqdır. Bu şərəfli yolu uğurla keçdiyim üçün çox sevinirəm. Bu yol hər bir gənc üçün müqəddəsdir, şərəflidir. Hərbi xidmət yaşına çatmış yoldaşlarıma, dostlarıma səslənmək istəyirəm ki, hər bir gənc hərbi xidmət keçməlidir. Bizi bir ömür qoynunda bəsləyən ana Vətənimizə xidmət etmək hər birimizin müqəddəs borcudur", - əsgər M.Həsənovun bu ürəkaçan sözləri nümunəvi xidmətinin aynası oldu.

Söhbətə davam edən Mirpaşa xidməti dövründə çoxlu dostlar qazandığından da danışdı. Komandirlərindən razılığını bildirdi. "Savadlı, bacarıqlı və peşəkar komandirlərimiz tərəfindən hərbi biliklərə və vərdişlərə yiyələnirik. Bir sözlə, hərbi xidmət bizi həm bacarıqlı əsgər kimi, həm də cəmiyyətə yararlı vətəndaş kimi formalaşdırır. Xidmətimizin uğurlu keçməsi üçün bütün sosial təminatlarımız qaydasındadır. Komandirlərimiz də mütəmadi olaraq qayğılarımızla maraqlanır, doğma münasibət göstərirlər. Hər kəs bilsin ki, əsgəri xidmətə gələn gənclər hərbi hissədə müsbət ab-havada, ailə mühitində, yüksək döyüş ruhunda xidmət edirlər. Öz adımdan və bütün əsgər yoldaşlarım adından Ali Baş Komandanımıza və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk ki, biz gənclərin uğurlu xidmət keçməsi üçün hər cür şərait yaradıblar".

Mirpaşa kimi vətənpərvər gənclərimiz öz xidmətləri ilə sübut edirlər ki, regionun ən güclüsü olan qalib Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyəti şəxsi heyətinin vətənpərvərliyindən, nümunəvi xidmətindən, intizamından bilavasitə asılıdır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# "Qarabağ Zəfərindən sonra tarixi torpaqlarımız uğrunda mübarizə aparmaq məsələsi ön plana çıxarıldı"

İki yüz il ərzində müxtəlif vaxtlarda soydaşlarımız etnik təmizləmələrə, soyqırımlara, deportasiyalara məruz qalıb. Ermənilər tərəfindən həyata keçirilən sonuncu deportasiyada - 1987-1991-ci illərdə isə min illər boyu Qərbi Azərbaycanda məskunlaşan soydaşlarımız ata-baba yurdlarından qovulublar. Çox sevinirik ki, Qarabağ Zəfərindən sonra tarixi torpaqlarımız uğrunda mübarizə aparmaq məsələsi ön plana çıxarıldı.

AZƏRTAC xəbər verir ki, bu sözləri Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda keçirilən mətbuat konfransında söyləyib.

O bildirib ki, Prezident İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycan məsələsinin hüquqi aspektlərini beynəlxalq müstəvidə müzakirə etmək üçün dekabrın 5-6-da qayıdış hüququ mövzusunda ikinci dəfə konfrans keçiriləcək. Qərbi azərbaycanlıların başlarına gələnlər və onların qayıdış hüququnun diqqət mərkəzində olacağı tədbirə 51 ölkədən 100-dən çox xarici iştirakçının qatılacağı gözlənilir.

# Vətən müharibəsində sağlamlıqlarını itirənlərlə görüş keçirilib

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov "Dayaq" Vətən Müharibəsi Əlillərinə və Şəhid Ailələrinə Dəstək Təşkilatının bir qrup üzvü ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Ordusunun əsgər və zabitlərinin Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlara diqqəti çəkən polkovnik Cəlil Xəlilov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əldə edilən şanlı Zəfərin tarixi əhəmiyyətindən, xalq-dövlət-ordu birliyinin zəruriliyindən bəhs edib. Qeyd olunub ki, veteranlar anti-Azərbaycan qüvvələrin təxribat xarakterli addımlarına çevik reaksiya verməli və həmin qüvvələrin, onların məkrli məqsədlərinin ifşası prosesində fəal iştirak etməlidirlər.





"Dayaq" Vətən Müharibəsi Əlillərinə və Şəhid Ailələrinə Dəstək Təşkilatının sədr müavini Məcid Məmmədov və başqaları bundan sonra da Ali Baş Komandanın hər bir çağırışına səs verməyə hazır olduqlarını bildiriblər.

Görüşdə yaxın gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan vətənpərvərlik layihələri haqqında da ətraflı fikir mübadiləsi aparılıb.

# Laçın şəhərinin azad olunmasından 4 il ötür...

## Bu, şanlı zəfər tariximizə daha bir hərbi və diplomatik qələbə kimi yazıldı

*Azərbaycanın dilbər guşələrindən olan Laçın rayonunun işğaldan azad edilməsindən 4 il ötür. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidentinin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və Azərbaycan Ordusunun şanlı Zəfəri Ermənistanı kapitulyasiyaya və əraziləri boşaltmağa məcbur etdi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladığı birgə bəyanata əsasən, 2020-ci il dekabrın 1-də Laçın rayonu Ermənistan ordusu tərəfindən boşaldıldı. İki il əvvəl, 2022-ci il avqustun 26-da xalqımız daha bir tarixi hadisənin səvincini və qürurunu yaşadı. Ordumuz həmin gün Laçın şəhərində yerləşdi, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Beləliklə, bu füsunkar, mühüm strateji mövqeyə malik diyarın işğalına tamamilə son qoyuldu.*





Qeyd edək ki, Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal dövründə rayonun əhalisi etnik təmizləməyə məruz qalıb, 300-dən çox hərbçi və mülki şəxs həlak olub və ya itkin düşüb. İşğalçılar tərəfindən 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi və digər infrastruktur obyektləri talan olunub və məhv edilib. Həmçinin 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə uğrayıb.

Təcavüzkar Ermənistan Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq, Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi və qazanc mənbəyinə çevrilməsi, məqsədyönlü məskunlaşma siyasəti apararaq, demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni əməllərlə məşğul olub, soyqırımları, bir çox digər hərbi cinayətlər törədib. Bütün bunlar dünya ictimaiyyətinin gözü qarşısında baş verir və çox təəssüf ki, susqunluqla qarşılanırdı.

Laçının işğaldan azad edilməsi Azərbaycanın həm hərbi, həm də siyasi-diplomatik müstəvidə qələbəsidir. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində 30 illik işğala son qoyuldu. Azərbaycan Prezidentinin liderlik keyfiyyəti, sərkərdəlik məharəti, siyasi iradəsi, müdrik qərarları və ordumuzun yüksək döyüş hazırlığı Ermənistanı kapitulyasiyaya və əraziləri boşaltmağa məcbur etdi. 2020-ci il dekabrın 1-də Laçın rayonu Ermənistan ordusu tərəfindən boşaldıldı. Bundan əvvəl, noyabrın 9-u isə Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdi. 2022-ci ilin avqustun 26-da Qarabağ Zəfərinin davamı olaraq Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bu, şanlı zəfər tariximizə daha bir hərbi və diplomatik qələbə kimi yazıldı. Prezident İlham Əliyev Laçın rayonunun işğaldan azad olunması ilə bağlı xalqa müraciətində deyib: "Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir. Biz müharibə zamanı təqribən 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik. Eyni zamanda, təxminən bir o qədər - 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq. Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var. Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edə bilərdi. Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə".

İşğaldan azad olunmuş digər yurd yerlərimiz kimi, Laçına da həyat yenidən qayıdır, burada sürətli bərpa-quruculuq işləri aparılır. Prezident İlham Əliyev Laçın rayonuna bir neçə dəfə səfər edib. Həmin səfərlər zamanı dövlətimizin başçısı Güləbird Su Elektrik Stansiyasının, "Qorçu" və "Laçın" şəhər yarımstansiyalarının və digər infrastruktur obyektlərinin açılışını edib, Laçın Beynəlxalq Hava Limanının, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, "Laçın" Qovşaq Yarımstansiyasının, Qorçu qəsəbəsinin və Şəlvə kəndinin, Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoyub.

Prezident İlham Əliyev mayın 28-də Laçına növbəti səfəri zamanı aparılan quruculuq işlərindən danışaraq deyib: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Bu gün Laçında həyata keçirilən genişmiqyaslı quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilir. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Şəhərin giriş hissəsindəki körpünün sol istiqamətində salınan çaykənarı bulvar Laçın sakinlərinin və qonaqların sevimli istirahət məkanlarından birinə çevrilib. Artıq Həkəri çayı üzərində göl yaradılıb. Burada asma körpü inşa edilib, ətrafda yaşıllıqlar salınıb, kotteclər tikilib. Göldə çimərlik də fəaliyyət göstərəcək. Rayon sakinlərinin və qonaqların rahat istirahət etməsi üçün çimərliyin ətrafında əyləncə mərkəzinin yaradılması nəzərdə tutulub.

Ötən il avqustun 25-26-da Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Laçın rayonuna səfər zamanı Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak ediblər.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, Laçın şəhərinin işğaldan azad edildiyi gün - 26 Avqust Laçın Şəhəri Günü kimi qeyd olunur. Hər il laçınlılar həmin günü doğma evlərində sonsuz qürur və sevinc hissi ilə bayram edirlər.

**"Azərbaycan Ordusu"**

Maraq dünyamız

# Çin 2031-ci ildə Marsdan torpaq nümunələri gətirməyi planlaşdırır

*Çinin "Tianwen-3" missiyası 2031-ci ildə Marsdan torpaq nümunələrini Yerə gətirəcək.*



AZƏRTAC Sinxua agentliyinə istinadla xəbər verir ki, missiyanın əsas elmi məqsədi Qırmızı planetdə həyat əlamətlərini axtarmaqdır.

2028-ci ildə "Tianwen-3"ün iki buraxılışı planlaşdırılır. Bu missiyanın məqsədi Marsa eniş etmək, nümunələr toplamaqdır. Bu halda, Qırmızı planetə eniş sahəsi də nümunə götürmə məkanına çevriləcəkdir.

Laboratoriyanın alimləri "National Science Review" jurnalının noyabr sayında dərc olunan qısa məqalədə öz tədqiqat strategiyalarını açıqlayıblar. Onlar, əsasən, "Chryse Planitia" və "Utopia Planitia"nın qədim bölgələrində cəmləşmiş, sahil xətləri, deltalar, qurumuş göllər və kanyon sistemləri kimi müxtəlif geoloji mühitləri əhatə edən 86 potensial eniş yeri təklif ediblər ki, bu da potensial həyat əlamətləri tapmağa imkan verəcək.

Komanda həm səthdən nümunə götürmə, həm də qazma üsullarından istifadə edərək bioimzaların müəyyən edilməsi istiqamətində iş aparacaq. Bu missiyada texnologiyanın xüsusi olaraq hazırlanmış yeni vasitələrindən istifadə olunacaq.

"Tianwen-3" missiyası beynəlxalq əməkdaşlıq vasitəsilə hazırlanmış faydalı yükü daşıyacaq. Eyni zamanda, Çin mütəxəssisləri Marsdakı torpaq nümunələri və aşkarlama məlumatları üzərində birgə araşdırma aparmaq üçün dünyanın müxtəlif ölkələrindən olan alimlərlə əməkdaşlıq edəcəklər.

Çin, həmçinin Yupiterin təkamül tarixini və onun peyklərinin meydana çıxması prosesini öyrənmək üçün "Tianwen-4" missiyasının bir hissəsi olan "Jovian" sistemini də tədqiq etməyi planlaşdırır.

# İdman

## Dünya reytinqi: Azərbaycanın iki güləşçisi öz çəki dərəcəsində liderdir



Dünya Güləş Birliyi (UWW) 2024-cü il üçün yekun reytinq cədvəlini açıqlayıb.

Cədvəldə Azərbaycan güləşçilərinin də mövqeləri bəlli olub.

Yunan-Roma güləşində Eldəniz Əzizli (55 kiloqram) və Ülvi Qənizadə (72 kiloqram) öz çəki dərəcələri üzrə liderdirlər. Nihat Məmmədli (63 kiloqram), Həsrət Cəfərov (67 kiloqram) və Sənan Süleymanov (77 kiloqram) isə ikinci pillədə qərarlaşıblar.

Sərbəst güləşçilərdən yalnız Nürəddin Novruzov (61 kiloqram) ilk üçlükdə yer alıb. O, öz çəki dərəcəsi üzrə ikincidir.

Qadın güləşində isə ən yaxşı nəticə üçüncü sırada yer alan Alyona Kolesnikə (59 kiloqram) məxsusdur.

Qeyd edək ki, siyahı tərtib edilərkən Olimpiya Oyunları, dünya və qitə çempionatları, eləcə də reytinq turnirlərinin nəticələri nəzərə alınıb.

## Gələn il Bakıda keçiriləcək gimnastika üzrə ilk beynəlxalq yarış bəlli olub




Azərbaycan Gimnastika Federasiyası 2025-ci ilin fevral ayında beynəlxalq yarışlar mövsümünə start verəcək.

Ölkəmizdə təşkil ediləcək ilk yarış fevralın 22-23-də batut gimnastikası və tambling üzrə Dünya Kuboku olacaq.

Milli Gimnastika Arenasında keçiriləcək yarışda 26 ölkədən idmançılar fərdi və sinxron proqramlar üzrə qələbə uğrunda mübarizə aparacaqlar.

## Azərbaycan klubu türkiyəli voleybolçu ilə anlaşıb



Kişi voleybolçulardan ibarət "Xilasedici" klubu heyətini yeni oyunçu ilə gücləndirib.

Bakı təmsilçisi türkiyəli voleybolçu Sərhat Coşqunla anlaşıb. Onunla mövsümün sonuna kimi müqavilə imzalanıb.

S.Coşqun son olaraq ölkəsinin "Cizrə Belədiyəspor" komandasında çıxış edib.

## Bakıda üzgüçülük üzrə açıq qış çempionatının açılış mərasimi olub



Bakıda üzgüçülük üzrə Azərbaycan açıq qış çempionatının açılış mərasimi keçirilib.

Bakı Su İdmanı Sarayında təşkil edilən tədbirdə əvvəlcə idmançıların paradı olub. Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib.

Rəsmi çıxışlardan sonra çempionat açıq elan olunub.

Beynəlxalq Üzgüçülük Federasiyasının (FINA), Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Üzgüçülük Federasiyasının Nizamnaməsinə və təsdiq olunmuş əsasnaməsinə uyğun olaraq keçirilən yarışda ölkənin 15 müxtəlif klub və idman cəmiyyətlərindən 150 FINA xalı olan 240-a yaxın idmançı qüvvəsini sınayır. Qeyd edək ki, dünən start götürən çempionata noyabrın 30-da yekun vurulacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Fransızların əksəriyyəti Ukraynaya qoşun göndərilməsinin əleyhinədir



Fransa əhalisinin əksəriyyəti Ukraynaya qoşun göndərilməsinin əleyhinədir.

Bunu "Le Journal du Dimanche" qəzetinin sifarişi ilə CSA sosioloji xidmətinin keçirdiyi rəy sorğusunun yekunları göstərib. Respondentlərin 68 faizi Ukraynaya qoşun göndərilməsinin əleyhinə olduğunu, 31 faizi isə bu fikri dəstəklədiyini bildirib.

Sorğunun nəticələrinə görə, Fransadakı bütün siyasi qüvvələrin tərəfdarları Ukraynaya hərbi müdaxiləyə qarşı çıxıblar. Lakin bu ideyanı rədd edənlərin ən çoxu (84 faizi) sağçı partiyaların, xüsusən də Milli Birlik Partiyasının tərəfdarları arasında müşahidə olunur.

Noyabrın 26-27-də keçirilmiş sorğuda yaşı 18-dən yuxarı olan 1010 nəfər Fransa vətəndaşı iştirak edib.

"Le Monde" qəzetinin yazdığına görə, Fransa rəhbərliyi və Müdafiə Nazirliyi Ukraynaya qoşun və ya özəl müdafiə şirkətlərindən döyüşçülər göndərilməsinə hələlik icazə verməsə də, təklif bir neçə aydır müzakirə olunur.

## ABŞ-ın Britaniyadakı hərbi bazaları üzərində naməlum PUA-lar görünüb



ABŞ Hərbi Hava Qüvvələrinin Böyük Britaniyadakı hərbi bazaları üzərində naməlum PUA-lar görünüb.

"The Times" qəzeti bu barədə ABŞ Hərbi Hava Qüvvələrinin Avropadakı komandanlığının nümayəndəsinə istinadla məlumat yayıb.

Onun sözlərinə görə, noyabrın 20-dən bəri Saffolk qraflığında yerləşən "Lakenheath" və "Mildenhall", həmçinin Norfolk qraflığındakı "Feltwell" və Qlosterşir qraflığındakı "Fairford" bazaları üzərində kiçik pilotsuz uçuş aparatları görünüb.

Noyabrın 26-da ABŞ-ın hərbi bazalarına PUA-ları aşkar edə, izləyə və zərərsizləşdirə bilən dron əleyhinə sistemlər və onları idarə edəcək onlarla britaniyalı ekspert yerləşdirilib.

## İndoneziyanın Sumatra əyalətində baş verən torpaq sürüşməsi nəticəsində azı 27 nəfər ölüb



İndoneziyanın Şimali Sumatra əyalətində baş verən daşqınlar və torpaq sürüşməsi nəticəsində azı 27 nəfər ölüb.

Bu barədə ANTARA xəbər agentliyi məlumat yayıb. Bildirilib ki, itkin düşənlərin axtarışı davam etdirilir.

İndoneziyanın Təbii Fəlakətlər üzrə Agentliyi qeyd edib ki, ötən həftədən bəri əyalətdə yağan leysan yağışlar dörd fərqli rayonda sel və torpaq sürüşməsinə səbəb olub.

## Avropa Parlamenti Gürcüstanla bağlı qətnamə qəbul edib



Avropa Parlamenti Gürcüstanın hökumət rəhbərlərinə sanksiya tətbiq edilməsi ilə bağlı qətnamə qəbul edib. 444 deputat qətnamənin lehinə, 72 nəfər isə əleyhinə səs verib.

Qətnamədə Gürcüstanın bəzi rəsmi şəxslərinə qarşı sanksiyaların tətbiqi tələb edilir, Gürcüstan vətəndaşlarının vizasız gediş-gəlişi rejiminə yenidən baxılması təklif olunur.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Muştaqov Elşən Əhsən oğluna məxsus AD № 000064542 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Abbasov Samir Hüseyn oğluna verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Cəfərov Məşədi Səməd oğluna verilmiş MV № 001645 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenanat
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 703
Nüsxə 4650